**FƏRİDƏ VƏLİYEVA**
**Nizami Gəncəvi ad. Ədəbiyyat İnstitutu**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Hüseyn Cavid prospekti, 115**
**feridehicran60@mail.ru**

# XIII-XV ƏSRLƏR ANADİLLİ TÜRK POEZİYASINDA TƏRİQƏTLƏR

**Xülasə**

XIII-XV əsrlərdə dövrün aydınları Quran, hədis, təfsir, kəlam, fiqh, irfan, əxlaq kimi bir çox ilahiyyat bilikləri ilə bərabər nücum, fəlsəfə, təbabət, fizika və sairə elm və mədəniyyət dəyərlərini mənimsəyərək ensiklopedik zəka sahibləri kimi yetişmişdilər. Bu dövrdə bədii təfəkkür folklor ənələləri, təsəvvüf və irfanla qarşılıqlı əlaqəli şəklində təşəkkül tapırdı. Bununla bərabər, təriqətlər əsrin əsas aparıcı istiqamətlərinə cevrilmişdi. XIII əsrdə artıq təsəvvüf əməli bir təlim olaraq cərəyan kimi formaqlaşmışdı. Təriqətlərə şaxələnərək inkişaf edən təsəvvüf bir çox anadilli mütəsəvvüflərin yetişməsində böyük rol oynamışdır: Hacı Vəli Bektaş, Sultan Vələd, Əhməd Fakih, Dehqani, Şəyyad Həmzə, Yunus Əmrə və başqaları.

Təsəvvüfün əsas ana mövzusu varlığın tək olması, gercək olması və yaradılmışların Allahın təcəssümü olub Onun dərk edilib anlaşılması üцün mövcud olması, sonda faninin baqidə əriməsidir. Bütün bunların isə təməlində ilk növbədə Eşq dayanır. Eşq həqiqəti tanımaq yolunun açarıdır.

Məqalədə XIII-XV əsrlərdə anadilli türk şeirinə təsir edən təriqətlərdən və onların əsas ideoloji görüşlərindən bəhs edilmişdir.

**Açar sözlər:** türk ədəbiyyatı, təsəvvüf, təriqət, şair, poeziya, söz sənəti

XIII-XV əsrlərdə mövcud olan, bu və ya digər şəkildə bədii söz sənətinə nüfuz edən, öz ideya və fəlsəfi görüşləri ilə poetik təfəkkür örnəklərində təzahürünü tapan təriqətlərin ideloji istiqamətləri nə qədər müxtəlif, mürəkkəb, geniş və ziddiyyərli olsa da, onların hamısını birləşdirən ümumi bir məfkurə, bir xətt var idi ki, o da bütün yaradılmışların Yaradana qovuşmaq şövqü, ilahi eşqin bu yolun əsas şərti kimi qəbul edilməsi və bu dünyanın faniliyinə inanıb baqi olan üçün çalışmaq əzmi. Bütün dünyəvi həvəslərdən sıyrılaraq (bədən təmizliyi, xəlvət, susmaq, oruc tutmaq, zikr etmək, təvəkkül etmək, nəfsani şeylər barədə düşünməmək, ancaq zəruri hallarda yatmaq, pəhriz saxlamaq) kamil bir mürşidin yanında yetişmək, mənən kamilləşmək təriqət üzvlərinin başlıca məqsədi idi. Təbii ki, bu ümumilik bütün təriqətlərin bir kökdən – sufilikdən qaynaqlanmasının nəticəsi idi.

Təriqət şairlərinin dini-fəlsəfi, poetik amallarından biri də Yaradanla yaradılan arasında qarşılıqlı əlaqənin mahiyyət və məğzini dərk etmək və bunu bədii sözün təsir gücündən istifadə edərək insanların anlayacağı bir dildə onların şüuruna, təfəkkürünə aşılamaqdan ibarət idi. Təsadüfi deyil ki, mütəsəvvüflərin bir çoxu heç də özlərini şair hesab etməmişlər. Professor Yusif Rüstəmov qeyd edir ki, "Mövlana özünü şair hesab etmirdi və göstərirdi ki, xalq şeiri daha yaxşı qəbul etdiyi üçün həyatının əsas mənası hesab etdiyi təsəvvüfü poeziya vasitəsilə təbliğ edir" (1, 3). Təsəvvüf şairləri yaratdıqları poetik nümunələrdə Tanrının vahidliyi ideyasını dəstəkləyir, varlığı fəlsəfənin və fəlsəfi-bədii sənətin əsas obyekti hesab edirdilər. Odur ki, Yaradanla insan, təbiətlə insan arasındakı münasibətləri hissə ilə tam, cüz` ilə küll arasındakı münasibətlər kimi izah və şərh edirdilər. Allahı yalnız insanın özündə deyil, bütün yaradılmışlarda axtarır, bütövlükdə təbiəti Tanrının surəti hesab edirdilər.

Təsəvvüfdə yaranan istiqamərləri araşdıran alimlər belə qənaətə gəlmişlər ki, “təsəvvüf mötədil və ifrat olmaqla iki istiqamətdə inkişaf edirdi: mötədil sufilər islam monoteizmindən kənara çıxmırdılar, ifrat sufilər isə az-çox dərəcədə panteizmə meyil göstərirdilər” (2). Təbii ki, təriqətin başında dayanan şeyxin şəxsiyyəti, fədakarlığı, təslimiyyəti və ona müridlik edənlərin kəmiyyət və keyfiyyət baxımından durumları da təriqətin nüfuzunu müəyyənləşdirən amillərdən idi. Bununula yanaşı, mövcud tarixi ictimai-siyasi, sosial-mədəni şəraitin də önəmini nəzərə almaq lazımdır. Hər bir təriqətin özünəməxsus “qanunları”, rəmz və simvolları, zikr qaydaları, təriqətə qəbul mərasimləri, hətta geyim tərzləri olmuşdur. Məsələn, ilk dönəmlərdə mövləviliyin başlıca qaydalarından bəhs edən tədqiqatçı yazır: “Bilinen başlıca uygulaması müridliğe kabul edilenlerin saç, sakal, bıyık ve kaşlarından birkaç kıl kesmek, kendisine halifelik verilenlere de bugün hırka denilen geniş kollu, yakasız, önü açık bir giysi olan fereci giydirmek, halkı aydınlatma görevini simgelemek üzere bir çerağ vermekti” (3).Mehmet Fuad Köprülü türk ədəbiyyatı tarixindəki böyük bir dönəmi əhatə edən sözügedən mərhələni “büyük mutasavvıflar devri” adlandırmışdır (4, 47).Türk təsəvvüf ədəbiyyatının ilk örnəkləri Əhməd Yəsəvinin hikmətləri ilə meydana gəlmişdir. Əhməd Yəsəvi 1103-cü ildə Qərbi Türküstanın Çimkənd şəhəri yaxınlığındakı Sayram qəsəbəsində dünyaya gəlmişdir. Əhməd Yəsəvinin əsərləri çox geniş bir bölgədə böyük nüfuz qazanmış, islamiyyətin dəyərlərini xalqın anlayacağı bir dildə, sadə Türk dilində, xalq ədəbiyyatına yaxın nəzm şəkillərində çatdırmağı bacarmışdır. Onun şeirlərində “vahdet-i vücut (varlık birliği), Tanrının sıfatları, ilahi aşk, insan-ı kamil, ahlaki ve ruhi eğitim, velayet, keramet, sohbet, halvet, zikir, insanın yüceliği, yaratılış, tecelli, nefy ü ispat, seyr ü süluk, adab erkan, meratip, dünyanın farıliği, nefsin kötülüğü, gibi konular büyük yer tutar” (3, 335). Əsası türk əsilli, hənəfi məzhəbinə mənsub və türk dilində ibrətamiz şeirlər toplusu olan «Divani Hikmət» əsəri günümüzədək gəlib çatan Əhməd Yəsəvi tərəfindən qoyulan yəsəvilik təliminin əsasında dayanan başlıca müddəaları insanın öz qüsur və ehtirasları ilə mübarizə aparmasının zərurətindən qaynaqlanır. Bu təriqətə görə, insan zikrlərin vasitəsi ilə ruhunu kamilləşdirməklə qüsurlardan qurtula bilər. Yəsəvilər zikrləri ucadan (səsli) edir və ruhi kamilləşmə yolunda tənhalığa, xəlvətə çəkilməyə üstünlük verirlər. Bu təriqətdə müridlər (tələbələr) doğruluq, yüksək ağıl, şeyxin dediklərini dərhal yerinə yetirmək kimi keyfiyyətlərə üstünlük verirlər. Bu gün də Əhməd Yəsəvinin türk təsəvvüf ədəbiyyatının yaranması və inkişafındakı rolu çox böyük hörmət və ehtiramla qeyd edilir: “Ahmed Yesevi, milletinin hayatında köklü ve sürekli etki yapan ender isimlerden birisidir. Hiç bir tarikat büyüğü, millet hayatında onun kadar etkili olmamıştır. O, Hazret-i Türküstan, Pir-i Türküstan diye anılan bir tarikat piridir. Hiç bir tarikat kurucusu, yaşadığı coğrafyanın adıyla böylesine özdeşleşmiş değildir. Onun XII. yüzyılda Türkistan`da yaktığı gönül ateşi, çağlar boyunca bütün Orta Asya`yı, Anadolu`yu ve Balkanlar`ı aydınlatmıştır. Bugün de aynı şekilde aydınlatmaya devam ediyor” (5, 7).XIII-XV əsrlərdə anadilli türk şeirinə təsir edən təriqətlərdən biri də əsası Nəcməddin Kübra tərəfindən qoyulmuş Kəbrəviyyə (Kübrəviyyə) təriqəti idi. Bu təriqətdəki azadfikirlilik, insanın Allaha qovuşmasının yollarının saflıqdan, təmizlikdən, xeyirxahlıqdan keçməsi fikirləri bədii və fəlsəfi söz sahiblərini özünə cəlb etmişdir. Bu səbəbdən də təriqətin təmsilçilərinin sayı xeyli artmışdı. Qeyd edək ki, Kübrəviyyə təriqəti Anadoluda çox yayılmasa da, Orta Asiya, İran və keçmiş Sovet İttifaqında da çox intişar tapmışdı. Hətta sovet zorakılıq rejiminə qarşı müqavimət göstərənlərin də öncülləri kəbrəviyyə təriqətinə mənsub idilər. Yeri gəlmişkən, qeyd edək ki, kəbrəviyyə təqirətinin öncülləri sırasında 1562-63-cü illərdə Azərbaycanın Qarabağ bölgəsində ruhani ailəsində doğulmuş alim-şair və filosof kimi tanınan, əsərləri dünyanın bir çox kitabxanalarında saxlanılan Yusif Qarabağinin də adı çəkilir (7).

Mövlana Cəlaləddin Ruminin atası Bahəddin Məhəmməd Vələd də Nəcməddin Kübranın, Şəms Təbrizi isə Nəcməddin Kübranın xəlifələrindən olan Baba Kəmali Cündinin müridlərindən olmuşdur.

Nəcməddin Kübranın təriqət tərbiyəsindən bəhs edən “Üsuli Aşere” risaləsi bütün digər təriqətlərə, xüsusilə nəqşibəndiyə və mövləviyyə təriqətlərinə təsir etmişdir.

XIII-XV əsrlərdə geniş yayılan və poeziyaya da diqqətəçarpan təsir göstərən təriqətlərdən biridə mövləvilik olmuşdur. Mövləvilik Mövlana Cəlaləddin Ruminin fikir və düşüncələri çərçivəsində qurulan təriqət hesab olunur. Məhəmməd Mövlana Cəlaləddin Rumi 30 sentyabr 1207-ci ildə

hazırda Əfqanıstan ərazisində olan Bəlx şəhərində dünyaya gəlmişdir. Təriqətin əsl qurucusu və "ikinci piri" isə Mövlananın oğlu, atasının fikirlərini sistemləşdirən və təriqətin əsasları şəklində işləyən Sultan Vələd olmuşdur. "Mevleviliğe göre tasavvufi eğitimin amacı insanın kendine gelmesini, kendini bulmasını sağlamaktır. Gerçeğe ulaşmak için insan tabiatına aykırı yöntemlere başvurulmamalıdır. Zikir ve çile gerçeğe ulaşmanın temel yöntemi değildir. Zikir ancak düşünceyi harekete geçirdiği ölçüde yararlıdır. Gerçeğe ulaşmanın asıl yolu aşk ve cezbedir. Bunun için de isimlerden ve kelimelerden geçip Allah'ı bulmak Allah dışındaki varlıklardan (masiva) arınmak gerekir. Bütün varlığı kuşatan Allah'ın varlığı tek gerçektir. Varmış gibi görülen varlıklar gerçekte yoktur; varolan, bu varlıklar aracılığı ile kendini gösteren Allah'tır. Evren her an yeniden yaratılmaktadır. Zıdlar alemi olan bu dünyada herşey izafidir. Allah'ı gerçek anlamda tanımayan insanlar dünyanın, altın ve gümüşün kulu, kölesi olurlar. Bu kölelikten kurtulmanın tek yolu da Allah aşkıdır" (8). Sultan Vələdin ortaya qoyduğu ilk dönəm mövləviliyi daha sonrakı dönəmlərdə, xüsusilə də XV əsrdən sonra ağırlığı sənət, ədəbiyyata verərək daha da inkişaf etmişdir.

Mövləvilik bu təriqətə mənsub olmayan söz sənətkarlarının da yaradıcılığına çox böyük təsir göstərmiş, təriqətin rəmzinə çevrilmiş ney, neyistan, səma həm müstəqim mənasında, həm də təşbih, təlmiş və məcazın digər növləri kimi klassik türk şeirində işlədilmişdir. Qazi Bürhanəddin, Nəsimi, Əhmədi, Şeyxi, Qaramanlı Nizami, Mahmud Paşa, Qaramanlı Ayni, Çakəri, Cem Sultan, Əhməd Paşa, Vəsfi, Həmdullah Həmdi, Necati, Məsihi və başqa şairlərin yaradıcılığı buna misal ola bilər.

Mənbələr qeyd edir ki, Mövlana Cəlaləddin Rumi Hələbdə məşhur fəqih Kəmaləddin ibn Elməddinlə tanış olmuş və ondan hənəfiliyi də öyrənmişdir. 4 sünni məzhəbindən biri olan və çox geniş coğrafi ərazidə yayılan hənəfiliyin qurucusu böyük İslam alimi Şeyxülislam İmam-Əzəm Əbu Hənifədir (əsl adı Numan bin Sabit).

Bektaşilik təriqəti Hacı Bektaş Veli tərəfindən qurulmuşdur. Anadolunun ucqar bir kəndində qurulduğundan alim-üləmalardan və şəhər əhalisindən daha çox kənd camaatı arasında yayılmışdır. Lakin inkişaf edib yayıldıqdan sonra tərəfdarları çoxalmışdır. Digər təriqətlə kimi bəktaşiliyin də özünə xas işarət və rəmzləri vardır. Lakin təriqətlərin bir çoxundakı "seyri-süluk" bektaşilikdə yoxdur. Bektaşikdə "əhli-beyt"ə xüsusi sevgi və məhəbbət duyulur, hətta ifrat həddədir, deyə bilərik. Bektaşilik Anadolu sərhədləri daxilindən çıxaraq Bolqarıstan, Rumıniya, Serbiya, Misir və Macarıstana qədər yayılmışdır.

Bektaşi ədəbiyyatı xalq şeirindən qaynaqlanmış, xalq poeziyasının vəzn, qafiyə və s. xüsusiyyətlərini davam etdirtmişdir. Bektaşi təkkələrində səsləndirilən musiqilər də xalq musiqisi ruhundadır.

XIII yüzilliyin ikinci yarısı XIV əsrin ilk dönəmlərində yaşayan Yunus Emrə Anadoluda Təkkə şeirinin ən güclü nümayəndələrindən olmuşdur. "Orta Asya' da Ahmet Yesevi ve dervişlerinin "hikmet"leriyle başlayan çığırı Anadolu' da devam ettiren Yunus, klasik sufi terıninolojisini Türkçeleştirmiş, İslami ve insani değerleri tasavvufi düşünce içerisinde en güzel biçimde sunabilmek için kendi öz dilini ve terıninolojisini kullanmıştır" (6, 336).

XIV əsrin ikinci yarısında yazıb-yaradan, hürufilik təriqətinin böyük nümayəndəsi Azərbaycan şairi İmadəddin Nəsiminin Türk ədəbiyyatına çox böyük təsiri olmuşdur.

XIV əsrin sonu XV əsrin əvvəllərində yaranan təriqətlərdən biri də Hacı Bayram Vəli tərəfindən əsası qoyulan bayramilik idi. Bayramilik təsəvvüf tarixində hissediləcək bir mövqeyə sahib olmuşdur.

Hacı Bayram Veli, Yunus Əmrənin ilahiləri tərzində şeirlər yazmışdır. Onun məşhur ilahilərindən biri aşağıdakıdır:

Çalab'ım bir şâr yaratmış iki cihan aresinde,
Bakıcak dîdâr görünür ol şârın kenâresinde
Nağihan ol şâra vardım, ol şârı yapılır gördüm
Ben dahi bile yapıldım taş u toprak aresinde
Ol şârdan oklar atılır, gelir ciğere batılır
Arifler sözü satılır ol şârın pazaresinde
Şâkirdleri taş yonarlar, yonup üstada sunarlar

Çalab'ın ismin anarlar o taşın her pâresinde
Bu sözü ârifler anlar, cahiller bilmeyip tanlar
Hacı Bayram, kendi banlar ol şarın minaresinde (9).

Digər əksər təriqətlər kimi bayramiliyin əsas ideya qaynağı vəhdəti-vücud fəlsəfəsi idi. "Vahdete inanmak diğer tarikatlarda; sonunda varılan bir netice iken; Bayramîler'de, henüz işin başında iken bulunması gereken bir husustur. Bu inanç, zamanla oluş haline gelmelidir. Fenâfillah mertebeleri diye de adlandırılan ve Tevhîd-i Ef'âl (Fiillerin birlenmesi), Tevhîd-i Sıfât (Sıfatların birlenmesi) ve Tevhîdi Zât (Zâtın birlenmesi), yani sırayla; her fiilin fâilinin, her sıfatın mevsûfunun Allah olduğu ve Allah'tan başka gerçek varlık bulunmadığı şeklinde özetlenen Tevhîd anlayışına çok önem verilir" (9).

Bayramilik həyatda heç kimə yük olmamağı, alin təri ilə, halal zəhmətlə yaşamağı, başqasının qarşılaşdıqları çətinliklərdə imkan daxilində yardıma çatmağı təbliğ edirdi.

Xəlvətiyyə təriqətinin əsası Şeyx Siracəddin Əbu Abdullah tərəfindən əsası qoyulmuşdur. Şeyxin haqqında dolaşan əfsanələrdə deyilir ki, o, yeddi dəfə həccə getmişdir. Şeyx Siracəddin Əbu Abdullah səhralarda dolaşarkən bir gün içi boş, çox böyük çinar ağacına rast gəlir, xəlvətə çəkilmək niyyətilə qırx "ərbaini" bir-birinin ardınca burada tamamlayır. Rəvayətə görə, təsis etdiyi təriqətin adı – "Xəlvətiyyə" də buradan yaranmışdır.

Xəlvətiliyin əsasları zikrullah üzərində qurulmuşdur. İnsan özünü, nəfsini hər cür keçici həvəslərdən, dünya nemətlərindən xilas edərək Tanrıya yönəlməlidir. Zikrin məqsədi Allahdan başqa heç bir varlığı düşünməmək, hər bir varlıqda Allahı görmək və nəhayətdə vahidə qovuşmaqdır. İnsan iradəsi xaricində olanbir sıra səbəblər üzündən pisliklərə meyil edən ruhunu zikr ilə təmizləyir. Bu da, məlum olduğu kimi, vəhdəti-vücud fəlsəfəsinin əsasını təşkil edən əsas ideyadır. Xəlvətiyyə təriqətinə görə Kamala yetmək üçün yeddi mərhələdən keçmək lazımdır. Bu məqamlar bunlardır: "Nefs-i emmâre, Nefs-i levvâme, Nefs-i mülhime, Nefs-i mutmainne, Nefs-i radiyye, Nefs-i mardiyye, Nefs-i kâmile" (8).

XIV əsrdə yaranıb çox geniş yayılan və dövrün anadilli poeziyasına təsir edən təriqətlərdən biri də hürufilik idi. Əslində kökü daha qədimlərə gedib çıxsa da, hürufiliyin bir təriqət kimi yaranma tarixi Fəzlullah əl-Hürufinin (Nəiminin) adı ilə bağlıdır. Hürufilik təlimində hərf və rəqəmlər müqəddəs sayılmış və onlara müxtəlif mənalar verilərək Allaha məxsus sirlərin hərflərdə gizləndiyi fikri qəbul edilmişdir.

Qeyd edək ki, İslamda da hərflərin bəzi xüsusiyyətlərə malik olması inancı vardır. Bu baxımdan Quranın iyirmi doqquz surəsinin əvvəlindəki hərflərə müxtəlif mənalar verilmişdir. "İslâm uleması arasında hurûf ile uğraşanların başında Hallâc-ı Mansûr (ö. 922) ibn Nedim (ö. 987)'den sonra ibnü'l-Arabî (1165-1240), İbn-i Haldûn (1332-1406), Abdurrahman-ı Bistâmî (ö. 1454) ve Sarı Abdullah Efendi (1584-1660) gelir" (8).

Fəzlullah Nəimi hərflərin əhəmiyyətini, onların saylarla olan münasibətini, Allaha aid sirlərin, dini əmr və hökmlərin ərəb və fars əlifbasındakı iyirmi səkkiz və otuziki hərfdə gizləndiyi fikrini irəli sürmüşdür.

Fəzlullah Nəimi otuz iki yaşında qurduğu təriqəti ilk öncə Təbriz və İsfahanda yaymağa başlamış və bu təriqət qısa zamanda çox böyük şöhrət qazanmışdı. Onun əsas fikir və mülahizələri "Cavidannamə" əsərində yer almışdır.

Hürufiliyin qurucusu Fəzlullaha görə, İslam mütəsəvviflərinin də təsdiqlədiyi kimi, Allah gizli bir xəzinədir, hər şeyin həqiqəti, mövcudiyyyəti və ruhu isə səslərdir. Gizli bir xəzinə olan Allahın ilk təcəssümü kəlam şəklindəki səslərdən ibarətdir. Söz isə hərflərdən ibarətdir. "Cenâb-ı Hak bir insanın yüzünde tezâhür ve insanı temyîz eden bir kelâmdır. Bu kelâmın unsurlarında da bir sayı değeri vardır. Böylece bütün varlıkların asıl unsuru olan yirmisekiz harfi insan yüzünde görmek mümkündür. insan yüzünde doğuştan yedi hat vardır: iki kaş, dört kirpik ve bir saç" (8).

Hürufilər bütün dini hökmləri öz düşüncələrindən keçirərək izah edirdilər. Kəliçeyi-şəhadət, namaz, oruc, həcc və zəkat kimi dini hökmlər hürufilikdə iyirmi səkkiz və otuziki hərfləri tətbiq etməklə izah olunurdu. Qəribədir ki, rəqəm çox və ya az olduqda, hesablamanı doğrultmaq üçün "elmi-hüruf"un üsullarından və dörd hesab əməlindən istifadə etməklə nəticə çıxarılırdı.

Hürufilik düşüncəsində insan ən yüksək mərtəbədə dayanır. Mövcudat mütləq varlığın təzahürüdür. Bu təzahür insan oğlunda kamala çatmışdır.

XIV əsrin sonlarında ortaya çıxan hürufili tez bir zamanda Azərbaycan, Rumeli, Anadolu, İran, Suriya, Hindistanda geniş yayılmışdır.

Hürufilər təqib olunan zaman Hacı Vəli Bektaşi təkkəsinə sığınmışdılar. “Hurûfi inançları Bektaşiler arasında "sır" adı altında yayılmıştır” (8). Fateh Sultan Mehmet zamanında da hürufilər güclü təzyiq və təqibə məruz qalarkən öz fəaliyyətlərini bektaşi kimi davam etdirmişlər.

Hürufiliyin ən məşhur nümayəndəsi Fəzlullahın xəlifələrindən olan İmadəddin Nəsimidir. Qüdrətli qələm ustadının təsiri və onun ardıcıllarının vasitəsilə hürufilik uzun zaman təsir gücünü qoruyub saxlamışdır. Nəsiminin müridi şair Rəfii (XV əsr), Əbdülməcid Feriştəoğlu (XV əsr) və Virani Baba (XVII əsr) kimi hürufilər cərəyanın ən qüvvətli sənətkarlarından olmuşlar.

Hürufiliyin ana kitabı Fəzlullah Nəiminin “Cavidannamə” əsəri sayılsa da, onun “Ərşnamə”, “Məhəbbətnamə”, “Vəsiyyətnamə” kimi əsərlərində də təlimin əsas müddəaları yeralmışdır. Bundan başqa tədqiqatçıların hürufiliyin əsas əsərləri sırasında aşağıdakı nümunələrin adlarını da çəkirlər. “Fazlullâh'ın baş halifesi olan Ali el-A'lâ'nın Kıyâmet-nâme ve tevhîdnâme'si; Nesîmî'nin Dîvân ve Mukaddimetu'l-Hakâik'i; Emîr Giyâseddin'in İstivâ-nâme ve Mektub'u; Mır Şerîf'in Hacnâme, Mahşer-nâme ve Beyânu'l-vâkî'si; Refiî'nin Beşâretnâme ve Gençnâme'si; Abdulmecîd Ferişteoğlu'nun Işk-nâme ve Ahiretnâme; Yemını̂'nin Fazîlet-nâme'si; Muhîtî'nin Dîvân'ı; Misâlî'nin Dîvân'ı; Arşî'nin Dîvân'ı; Hamza Dede'nin Câvidân-nâme şerhleri; İskurt Muhamed Dede'nin Salât-nâme'si; Emîr İshak'ın Turâb-nâme'si gibi eserleri Hurûfiliğin diğer kaynakları olarak sayabiliriz (6). Hürufiliyə aid şeirlər içərisində İmadəddin Nəsiminin Fəzlullah Nəiminin ölümü münasibətilə yazdığı qəzəl çox məşhurdur:

Ey müsəlmanlar, bugün ol yari-pünhan ayrılır,
Ağlamayım neyləyim, çün gövdədən can ayrılır.

XV əsrdə Anadoluda yayılan və ədəbiyyata da bu və ya digər dərəcədə təsir göstərən təriqətlərdən biri də qədiriyədir (Kadiriye). Qədiriyə təriqəti İslam dünyasında geniş yayılan təriqətlərdəndir. Qədiriliyi Anadolu ilk dəfə gətirən Əşrəfoğlu Rumi olmuş və onun qurduğu Əşrəfiyyə qolu qədiriliyin tarixində önəmli rol oynamışdır. Qədiriliyin də özlərinə məxsus xüsusi geyimləri olmuş, təlimin əsasında isə İslam etiqad və inancları dayanmışdır.

XIII-XV əsrlərdə çox geniş yayılmış təriqətlərdən biri də nəqşibəndiyə təriqətidir. Nəqşibəndiyə təriqəti 1318-ci ildə Buxaranın 9 km-liyindəki Qəsri-Arifanda doğulan Bəhaəddin Nəqşibənd bin Məhəmməd əl-Buxari tərəfindən qurulmuş və İslam aləmində böyük nüfuza sahib olmuşdur. “Nəqşibənd” – fars dilindən “naxış vurmaq” kimi tərcümə olunur.

Nəqşibəndiyə təriqəti Fateh Sultan Məhəmməd zamanında Molla İlahi Simavi vasitəsilə İstanbula yol almışdır. XVIII əsrdə Movlana Ziyaəddin Bağdadi vasutəsilə Osmanlılarda geniş yayıldı və nüfuz qazandı. Osmanlı hökmdarları nəqşibəndiyəni himayə edirdilər. Hazırda İstanbulda 65 Nəqşibəndi ocağının olması da bu təriqətin xalq arasında nə qədər geniş yayıldığını göstərir.

Nəqşibəndiyə təriqətində şəriətin əsasları və ona bağlılıq əsas götürülsə də, elmə, elmi biliklərin və`z və söhbətlər vasitəsilə yayılmasına da çox böyük dəyər verilirdi. Diqqətəlayiqdir ki, nəqşibəndilikdə fizika, kimya, biologiya və s. kimi dünyəvi elmlərə də yer ayrılırdı. Nəqşibəndiyə təriqəti insanı nəfsin pəncəsindən qurtarmaq, pis vərdişlərdən qorumaq üçün tövbə, zikr, təvəkkül, nafilə namazlar və bu kimi əməllərlə məşğul etməyə səsləyir. Yalnız bu yolla nəfsə qalib gəlib onu nəzarət altında saxlamaq olar.

XIII-XV əsrlərdəki təriqətlərin türk şeirinə təsirindən danışarkən Məlamilik təriqətinin də adını çəkmək lazımdır. Məlamilik də “vəhdəti-vücud” fəlsəfəsinə əsaslanır. Lakin bu təriqətin də yalnız ona xas xüsusiyyətləri vardır. Məsələn, məlamilər camaat namazı istisna olmaqla bütün digər ibadətlərini gizli icra edərdilər. Bunları aşkar edəndə özlərini qınayırdılar və elə təriəqtin adıda buradan götürülmüşdür. Məlamilər hətta özlərini bəlli etməmək üçün xalq içərisində adi geyimdə gəzərdilər. Görünüşə önəm verməzdilər. Heç xoşlamadıqları xislət kibir idi. Kibirdən qorunmaq məlamilikdə bir qanun halını almışdı.

Məlamilər ehtiyac və dərdlərini heç kimə anlatmazdılar. “Çünkü kula ihtiyacı bildirmek, muhtaçtan yardım istemektir. Bu sebeple ihtiyacı Allah'tan dilemek ve Peygamber'in yolundan

gitmek, kulluğun iki esasıdır. Birbirlerinin yardımına koşarlar. Bu konuda Hamdun Kassar: "Mümin, kardeşi için gece kandil, gündüz asa olmalıdır" der (8).

Məlamilik bir çox təriqətlərə, o cümlədən mövləviliyə də təsir göstərmişdir.

**Nəticə:** Aparılan tədqiqatlardan aydın olur ki, ayrı-ayrı bölgələrdə təriqətlər yaranıb, inkişaf edib yayıldıqca bu və ya digər təriqətin yolunu tutan təsəvvüf şairləri də yetişmiş və çoxalmışlar. Xalq dilinə və ruhuna, zövqünə yaxın dildə yazıb-yaradan bu şairlər xalq arasında tez bir zamanda məşhurlaşmış və sevilmişlər. Dini-təsəvvüfi təlimləri elmi-fəlsəfi dildə dərk etməyən xalq kütləri bu bilikləri məhz təsəvvüf şairlərinin əsərlərindən öyrənmişlər.

X-XI yüzilliklərdə təşəkkül tapmış təsəvvüf ədəbiyyatı XIII-XIV əsrlərdən etibarən ayrı-ayrı təsəvvüfi təriqətlərin yaranması və yayılması ilə təsirini gücləndirmiş, XV əsrdən etibarən daha yüksək inkişaf zirvəsinə çatmışdır. XIII-XV əsrlərdə mövcud olmuş təriqətlərin türk düşüncə və bədii təfəkkürünə önəmli təsiri və töhfələri olmuşdur. Təriqət alim və şairlərinin vəhdəti-vücud fəlsəfəsinə əsaslanan fikir və düşüncələri əsrlər boyunca yaranan ədəbiyyata təsirini saxlamış və bu gününədək də aktuallığını qorumaqdadır. Təriqət mərkəzləri eyni zamanda bir sənət, ədəbiyyat və mədəniyyət ocaqları olmuş, bir çox qələm sahiblərinin inkişafında önəmli rol oynamışdır.

Türk təsəvvüf ədəbiyyatının ümumi inkişafını qısa xarakterizə etsək, deyə bilərik ki, təsəvvüfün ilk rüşeymləri xalq ədəbiyyatında yaranmış, təbliğat məqsədi daşıyan bu ədəbiyyatın dili ilk dönəmlərdə nə qədər bəsit olsa da zaman keçdikcə daha bədiiləşmiş və poetik özəlliklər kəsb etmişdir. Tədqiqatçı M.Esad Coşanın da qeyd etdiyi kimi, “Tasavvufi halk edebiyatının bu ilk mahsulleri, propaganda və talim maksadıyla yazıldığından biraz cansız ve kuru olmakla beraber asırlar ilerledikce tekamületmiş ve Anadolu`da daha farklı bir yön ve inkişaf göstererek mesala Yunus Emre`de son derece ince, derin ve samimi hisleri, ruhun coşkunluğunu, erişilmez bir kolaylıkla bize aksettirecek seviyeye ulaşmıştır” (10, 37)

## Ədəbiyyat:

1. Rüstəmov Yusif. Ön söz. // Mövlana Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın materialları. Bakı, “Səda” nəşriyyatı, 2006. Səh. 3.
2. Azərbaycanda sufilər və əxilər. www.azerbaijans.com › ... › XI-XII əsrlərdə fəlsəfə
3. Mevlevilik Kültürü. http://gaziantepvakifmuzesi.net/gaziantep-mevlevihanesi-mevlevilik-kulturu.html
4. Mehmet Fuad Köprülü. Türk edebiyatında ilk mutasavvıflar. İstanbul, 2013.
5. Niyazi Y. Gençosmanoğlu. Hoca Ahmed Yesevi. // Yesevilik bilgisi. Ankara, Milli Eğitim Basımevi, 2000.
Azmi Bilgin. Türk Tasavvuf Edebiyatı Literatürü. Türkiye Araştırmaları Literatür Dergisi, Cilt 5, Sayı 10, 2007. 331-352.
6. Əli Şamil. Yusif Qarabağinin ömür yolu və mübarizəsi…
https://ali-shamil.tr.gg/Yusif-Qaraba%26%23287%3Bi.htm
7. Tarikatlar və özəllikləri. http://www.ilimalemi.com/tasavvuf/12392-tarikatlar-ve-ozellikleri.html
8. Bayramiyye. Osmanlı araştırmaları.
http://www.os-ar.com/modules.php?name=Encyclopedia&op=content&tid=501168
9. M.Esad Coşan. Tasavvufi Halk Edebiyatı. // Akademik makaleler. İstanbul, 2009.

**F. Valiyeva**

## Sects in native turkish poetry of the XIII-XV centuries

### Summary

In the XIII-XV centuries intellectuals of that period were educated as encyclopaedic intellectuals, adopting the values of astrology, culture, philosophy, medicine, physics and other fields of science, along with many theological knowledge such as Quran, ahadith, tafsir (interpretation), sayyid, fiqh, lore and morality.In this period artistic folk traditions emerged in the

form of sufism and lore. In addition, sects became the leading directions of the century. In the XIII century Sufism was formed as a movement. Sufism, which is spreading into different sects, played a great role in the development of many native Sufi poets: Haji Vali Bektash, Sultan Veled, Ahmed Fakih, Dehgani, Sheyyad Hamza, Yunus Emre, and others.

The main line of Sufism is that being is one, true, and all beings are incarnation of God, its existence is for understanding and perception of God, finally finally, morality disappears in eternity. First of all, on the basis of all of these is love. Love is a key to find out truth.

In the article it is dealt with sects affecting native Turkish poem in the XIII-XV centuries and main ideological thoughts.

**Key words:** Turkish literature, Sufism, sect, poet, poetry, art of speech

**Ф Велиева**

**Влияние сект на тюркоязычную поэзию XIII-XV столетий**

**Резюме**

Просвещенные люди, жившие в XIII-XV веках, не только обладали знаниями, касающимися таких богословских материй как Коран, хадис, тафсир (толкование), калам (изречение), фигх (теология), ирфан (особый вид сакрального знания в исламе), этика, но и были знакомы с тонкостями астрологии, философии, медицины, физики и т.д. Широкий круг знаний, охватывающий разные сферы науки и культуры, позволял считать их людьми, имеющими энциклопедическое мышление. Художественное же мышление в этот период развивалось в тесной связи с фольклорными традициями, суфизмом и ирфаном. Тем не менее, именно существование и деятельность сект, оказывало основное влияние на идеологические воззрения эпохи. Так, в XIII веке суфизм (тасаввуф) уже сформировался как определенное функциональное течение. Тасаввуф, поделенный в соответствии с ориентирами разных сект, которые имели собственный путь развития, сыграл значительную роль в формировании взглядов тюркоязычных поэтов-суфиев. Речь идет о таких мастерах, как Хаджи Вели Бекташ, Султан Валад, Ахмед Факих, Дехгани, Сайяд Хамза, Юнус Эмре и др. Краеугольную тему суфизма составляет утверждение о том, что бытие едино и осязаемо, сотворенные являются воплощением Аллаха и существуют для познания его Истины и все тленное рано или поздно должно раствориться в вечности. Основу всего перечисленного составляет Любовь. Именно Любовь есть ключ к познанию Истины. В статье затронуты вопросы относительно сект, повлиявших на тюркоязычную поэзию XIII-XV веков, их основных идеологических установок.

**Ключевые слова:** тюркская литература, суфизм, секта, поэт, поэзия, словесное искусство

Redaksiyaya daxil olma tarixi: 20.03.2019
Çapa qəbul olunma tarixi: 29.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Eşqanə Babayeva tərəfindən çapa tövsiyə olunmuşdur